**UOT 930.25.**

**Şadgün Araz qızı Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail:** sadgunsahin@gmail.com

# SƏNƏDLƏRİN BƏRPASI ÜZRƏ MƏRKƏZİ LABORATORİYANIN İŞ PRİNSİPİ

**Xülasə:** Dövlət Arxiv İdarəsinin nəzdində fəaliyyət göstərən "Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriya"da aparılan işlərə nəzər saldıqda görürük ki, bərpa üçün daxil olmuş arxiv sənədlərinin tez bir müddət ərzində bərpası, onların qısa müddət ərzində Baş Arxiv İdarəsinə təhvil verilməsidir. Laboratoriya bərpaçıları tərəfindən hər gün ən azı 50 sənədin bərpa olunması məqsədəuyğundur. Lakin bərpa olunacaq arxiv sənədlərinin bərpası bəzən uzun çəkən proses olduğundan günlük 50 sənəd bərpası mümkün olmaya bilər.

**Açar sözlər:** bərpa, laboratoriya, arxiv sənədi, kimyəvi məhlul, formalin, Milli Arxiv İdarəsi, Mərkəzi Laboratoriya

**Giriş.** Sənədlərin bərpası məsələsi bu gün dünya ölkələri arasında diqqət mərkəzində olan məsələlərdən biridir. Sənədlərin uzun illərdən bəri qorunaraq müasir dövrümüzə qədər gəlib çatması əlbəttə ki, asan məsələ deyil. Bəs necə olur ki, bu sənədlər illər keçməsinə baxmayaraq, əsrlərdir mövcud olsalar da məhv olmur? Uzun illərdir saxlanılan bu arxiv sənədlərinin yenilənməsi prosesi necə olur?

Arxiv sənədlərinin qorunması, bərpa prosesi dünya ölkələrində hələ XIX əsrdən etibarən başlanılmışdır. Həmin dövrdə ən sadə üsullardan istifadə olunmaqla bərpa işləri aparılırdı. Əsasən də bərpa ediləcək sənədlərdə dövlət üçün mühüm əhəmiyyətə malik, qorunması vacib olan sənədlərə üstünlük verilirdi. Kimyəvi maddələrdən hazırlanmış qarışımlar və klassik alətlərdən istifadə həmin dövrdə daha mühüm rol oynayırdı (1). Eyni zamanda sənədlərin məhv olmasını gecikdirmək üçün onların saxlanılma şəraiti, arxiv binası və s. faktorlar əsasdır. Bütün bunlarla yanaşı, elm və texnikanın inkişafı nəticəsində müasir bərpa metodları mövcuddur. Bu bərpa metodlarından XXI əsrdən sonra istifadə olunmağa başladı.

Ölkəmizə nəzər salsaq, arxiv sahəsinin inkişafının XIX əsrin sonu, XX əsrin əvvəllərində inkişaf etdiyini görürük. Qəbul olunmuş qərarlar, görülmüş tədbirlər məhz 1990-cı illərdən sonrakı dövrə aiddir. Müstəqillik illərində Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin strukturu və tabeliyindəki təşkilatların şəbəkəsi yenidən təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 aprel 2011-ci il tarixli 57 nömrəli qərarı ilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı müəyyən edilmişdir (5).

Bu gün Azərbaycan Respublikasının arxiv işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti statusundakı Milli Arxiv İdarəsinin

tabeliyində 6 dövlət arxivi, Dövlət Arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, habelə 58 dəyişən tərkibli rayon və şəhər dövlət arxivi, MAİ yanında idarə sənədlərini qaydaya salan mərkəz fəaliyyət göstərir. Milli Arxiv İdarəsində sənədlərin bərpası və cildlənməsi üzrə mərkəzi laboratoriya, eləcə də mərkəzi elmi kitabxana vardır. Bundan başqa ölkəmizdə dövlət idarəetmə orqanlarının strukturunda müvafiq normativ hüquqi aktlara uyğun olaraq yaradılan spesifik sənədlərin saxlandığı xüsusi və sahə arxivləri, o cümlədən idarə arxivləri şəbəkəsi mövcuddur (5).

Azərbaycanda arxiv sənədlərinin bərpasını həyata keçirən Mərkəzi Dövlət Arxiv İdarəsinin nəzdində fəaliyyət göstərən Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriyadır. Bu Laboratoriya 1957-ci ildən etibarən fəaliyyətə başlamışdır. İlk dövrlərdə SSRİ-nin tabeliyi altında olduğumuz üçün Arxiv İdarəsi kimi Laboratoriyanın da fəaliyyəti zəif olmuşdu. Müstəqillik illərindən sonra arxivşünaslıq sahəsinə diqqət artırıldığından bərpa məsələsi də ön planda olmuşdur. Artıq XX əsrin ilk illərindən etibarən Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriyanın fəaliyyəti daha çox diqqət mərkəzində olmuşdur.

Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriyaya sənədlər birbaşa Baş Arxiv İdarəsindən göndərilir. Arxiv sənədlər bağlı qutularda göndərilir. Qutuların üzərində hansı Arxiv İdarəsinin sənədi olması, yerləşdiyi fond və s. qeyd olunur. Sənədlərin bərpa olunması mümkün olduqca tez bir zamanda restavrasiya olunaraq İdarəyə göndərilməlidir. Ancaq təəssüf ki, restavrasiya prosesi elə də tez başa gələn proses deyil. Sənədlərin Laboratoriyaya təhvil verilməsindən sonra ilk öncə materiallar arxiv işçiləri (bərpaçılar) tərəfindən qeydiyyata alınır. Qeydiyyatda sənədin adı və səhifəsi, hansı Arxiv İdarəsinə məxsus sənəd olması, bərpa ilə bağlı qeydlər (hansı formada bərpa olunması), eyni zamanda bərpaçının adı, soyadı və imzası olmalıdır. Sənədin bərpa prosesi bitdikdən sonra da həmin arxiv bərpaçısının imzası olmalıdır.

Dövlət Arxiv İdarəsinin nəzdnində fəaliyyət göstərən Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriyada həyata keçirilən bu prosesdə sənədlər ilk öncə vərəqlər şəklində bir-birindən ayrılır. Daha sonra sənədlərin üzəri təmizlənir və dezinfeksiya edilir. Növbəti mərhələdə isə sənədlərin necə zərər görməsindən asılı olaraq bərpası həyata keçirilir. Laboratoriyada sənədlərin hansı formada zərər görməsini araşdırırlar (gəmiricilər sayəsində, cırılma nəticəsində, temperatur və s.). Bundan sonra isə sənədlər Mərkəzi Laboratoriyada sənədlərin məhv olmuş, zərər görmüş hissələrinin bərpa prosesi gedir. Bu proses zamanı tərkibi müəyyən qatqılardan və adi kağızdan fərqlənən, xüsusi materialı olan kağız vasitəsindən istifadə olunur. Sənədlərin bərpasında istifadə olunan maddə undan hazırlanır. Həmin qatqının özü isə "kley" alınır. "Kley"in hazırlanmasında unun bişirilməsi lazımdır. Bu maddənin içinə təxmini olaraq 1 qaşıq miqdarında "Formalin" adlanan maddə əlavə edilir. Bu maddə sayəsində sənədlərin ömrü daha uzunmüddətli olur. Həmçinin sənədin gəmirici həşəratların, qurdların hücumuna məruz qalmasının qarşısı bu yolla alınır (Şəkil 1, 2).

Növbəti mərhələdə sənədlər preslənmədən keçir. Preslənmə xüsusi maşınla həyata keçirilir. Pres maşını sayəsində sənədlər hamar vəziyyətə gətirilir. Lakin

preslənmə mərhələsinə qədər arxiv sənədlərinin ən azı yarım gün qurudulması lazımdır. Çünki sənədlərin yapışdırılması üçün istifadə olunan yapışqan maddə qurumalıdır.

Preslənmə mərhələsindən sonra isə cildlənmə prosesi üçün sənədlər cild otağına göndərilir. Cild otağında sənədlərin arxiv işçiləri tərəfindən nizamlı şəkildə, ardıcıllıqla yığımı aparılır. Cildləndikdən sonra isə arxiv sənədlərinin üzərinə karton materialdan olan örtüklər yerləşdirilir. Bu lövhələr sayəsində sənədlərin uzunömürlülük müddəti daha da uzadılır. Sonuncu olaraq isə sənədlər yenidən Baş Arxiv İdarəsinə təhvil verilir.





Şəkil 1. Şəkil 2.

Daha çox zərər görmüş sənədlər vardır ki, biz bu kateqoriyalı sənədlərin bərpasında ütü üsulundan istifadəni görürük. Bu üsuldan sənədin bütün səhifələrinin bərpasında istifadə etmirik. Yalnız daha çox zərər görmüş, bərpası çətin sənədlərdə bu metodla qarşılaşırıq. Əvvəlcə həmin səhifələr müəyyən edilir. Növbəti mərhələdə arxiv sənədinin qatlanmış, əzilmiş hissələri məişət ütüsü vasitəsilə səliqəli vəziyyətə gətirilir ki, sənədin bərpası zamanı problem yaşanmasın. Xüsusi şüşə üzərində sənədin bərpa olunacaq hissələrinə uyğun olaraq xüsusi kağız kəsilir. Bu mərhələ bizə sanki "Puzzle" xatırladır. Bərpa olunacaq hissələrə uyğun kəsilmiş kağız yenidən ütü vasitəsilə Almaniyada istehsal olunmuş, bir üzü yapışqan maddədən ibarət olan kağızın köməyi ilə sənədin bərpa olunacaq hissəsinə yapışdırılır (Şəkil 3). Bu proses zamanı həmin kağızı sənədlə tam birləşdirmək üçün sənədin yanmamasına diqqət etmək şərti ilə bir xeyli ütüləmək lazımdır. Əks halda, sənədin oxunmasında çətinlik yaranacaq, eyni zamanda Arxiv İdarəsində rütubətə məruz qalan sənədin məhv olması prosesi sürətlənəcəkdir.



Şəkil 3.

Laboratoriya Mərkəzində yerləşən digər bir otaqda isə kimyəvi məhlullarla restavrasiya olunan səndlər saxlanılır. Bu sənədlər dəyərli, özündə çox lazımlı tarixi materialları əks etdirən sənədlər olur. Həmin otağa daxil olarkən mütləq qoruyucu maskalardan istifadə etməliyik. Çünki otaqda həm kimyəvi vasitələrdən, həm də insan sağlamlığına zərər vura biləcək qazlardan istifadə olunaraq arxiv sənədlərinin bərpası həyata keçirilir.

Bəzi sənədlər isə ümumiyyətlə elə bir vəziyyətdə olur ki, bu sənədlər həddən artıq kövrək olur. Əsasən uzun illər, əsrlərlə yaşı olan arxiv sənədlərini bu kateqoriyada görürük. Onların restavrasiyasında işçilər həddindən artıq diqqətli davranmalı olurlar.

Bəs arxiv sənədlərinin bərpası yalnız bu metodlarla aparılır?

Dövlət Arxiv İdarəsinin nəzdində fəaliyyət göstərən Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriyasında aparılan bərpa metodlarına nəzər saldıqda görürük ki, burada istifadə olunan əsas bərpa texnologiyaları məhz yuxarıda qeyd olunanlardır. Bunun əsas səbəbi isə bu metodların daha asan, tez və uzun müddət ərzində davamlı olmasıdır. Dünya ölkələrində (əsasən Rusiya, Qazaxıstan və bir sıra qonşu dövlətlərdə) geniş istifadə olunan bərpa metodu "duru kağız" üsulu ilə bərpa metodudur. Bu metodda kağız və sudan istifadə olunaraq duru halda məhlul əldə edilir. Arxiv sənədinin məhv olmuş hissəsinə əldə olunmuş məhluldan əlavə edilərək

qurudulur. "Duru kağız"la bərpanın mənfi üsusiyyəti ondan ibarətdir ki, sənədin rəngi ilə bərpa olunmuş hissənin rəngi bir-birindən fərqlənir. Mərkəzi Laboratoriyada bu metoddan yalnız xüsusi sənədlərin (əksərən tək səhifənin) bərpası zamanı istifadə olunur. Belə sənədləri "eksklüziv sənəd" adlandırırlar.

**Ədəbiyyat siyahısı:**

1. C.Çinarə, "Kimyaçının dostu", Bakı, Parlaq İmzalar
2. Milli Arxiv İdarəsinin nəzdində fəaliyyət göstərən "Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriyası"
3. S.İlhamə, "Arxiv sənədləri klassik və müasir bərpa metodları", məqalə
4. S.İlhamə, "Arxivşünaslıq"
5. http://milliarxiv.gov.az/az/struktur-ve-tabeli-teski-latlar

**Shadgun Araz Mammadova**

**WORKING PRINCIPLE OF THE "CENTRAL LABORATORY FOR DOCUMENT RECOVERY".**

**Summary:** When we look at the work carried out in the "Central Laboratory for the Restoration of Documents" operating under the State Archives Department, we see that the archival documents received for restoration are quickly restored and handed over to the General Archives Department in a short period of time. It is recommended that at least 50 documents are recovered by the laboratory restorers every day. However, it may not be possible to recover 50 documents per day, as the recovery of archived files to be recovered is sometimes a long process.

**Keywords**: restoration, laboratory, archival document, chemical solution, formalin, National Archives Office, Central Laboratory.

**Шадгун Араз Мамедова**

**ПРИНЦИП РАБОТЫ «ЦЕНТРАЛЬНОЙ ЛАБОРАТОРИИ ВОССТАНОВЛЕНИЯ ДОКУМЕНТОВ»**

**Резюме:** В «Центральной лаборатории по восстановлению документов», действующей при Государственном архивном управлении, в кратчайшие сроки восстановливаются архивные документы, поступившие в лабораторию, и передаются в Главное архивное управление. Ежедневно реставраторы лаборатории могут восстанавить не менее 50 документов. Однако восстановить 50 документов в день порой бывает невозможным, поскольку восстановление архивных документов иногда является длительным процессом.

**Ключевые слова:** восстановление, лаборатория, архивный документ, химический раствор, формалин, Национальное Архивное Управление, Центральная лаборатория

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**